Kim dəstəmaz alar və onu kamil şəkildə yerinə yetirərsə, sonra cümə namazına gedər, dinləyər və sakit durarsa, onunla növbəti cümə arasındakı və əlavə üç günlük günahları bağışlanar

Əbu Hureyradan (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: "Kim dəstəmaz alar və onu kamil şəkildə yerinə yetirərsə, sonra cümə namazına gedər, dinləyər və sakit durarsa, onunla növbəti cümə arasındakı və əlavə üç günlük günahları bağışlanar və hər kim kiçik daşlarla oynayarsa, artıq boş işlə məşğul olmuş (cümənin savabını itirmiş) olar."
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, kim dəstəmaz alar və onun ruknlarını tamamlayaraq, sünnət və ədəblərinə əməl etməklə gözəl şəkildə yerinə yetirərsə, sonra cümə namazına gedib, susaraq xütbə verəni dinləyərsə və boş söhbət etməzsə, bu cümə namazından ikinci cüməyə və üç gün də əlavə olaraq on günlük kiçik günahlarını Allah bağışlayar. Çünki yaxşı əməlin savabı on qat artırılar. Sonra o, (Allahın salavatı və salamı onun üzərinə olsun) xütbə zamanı bədən əzaları ilə daşlara toxunmaq və digər bu kimi boş işlərlə məşğul olub, xütbədə deyilən nəsihətlərə qəlbin yönəlməməsindən çəkindirmişdir. Belə ki, kim bunu edərsə, artıq boş işlə məşğul olmuşdur və kim boş işlə məşğul olarsa, onun cümə namazının kamil savabından bir payı yoxdur.

http://www.sunnah.global/hadeeth/az/show/5433